# Türkçülük təliminin mahiyyəti: siyasi-ideoloji, yoxsa sosial-fəlsəfi cərəyan




**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri, dos., dr.**

**Faiq Ələkbərli**


## VIII Yazı

***1940-ci illərdən etibarən Türkiyə ictimai-siyasi həyatında ortaya çıxan Alparslan Türkeşin düşüncəsində də geniş anlamdakı Türkçülük əsaslı bir zəmin kimi formalaşmışdır. Yəni Türkeş Hüseynzadələr, Gökalplar, Rəsulzadələr, Atatürklər kimi böyük türkçülərdən, turançılardan yol alaraq Türkçülük ideyasını davam etdirməyə çalışmışdır. Alparslan Türkeş həbsxanaya düşməsinə səbəb olan Orkun dərgisində nəşr olunmuş məqaləsində yazırdı: “Başta kendini Türkten başqa bir şey saymayan veya Türk kanından olan insanlar olmalı... Türküm demekle de olmaz, Türklügü sindirmiş olmalı”.***

Öncədən bildirməliyik ki, “9 İşıq Doktrinası” Alparslan Türkeş tərəfindən Milli Doktrina kimi müəyyənləşdirilərək “Doqquz İşıq” kimi ortaya qoyulan idealist düşüncənin ifadəsidir. Əvvəlcə CKMP-nın, daha sonra da Milliyyətçi Hərəkat Partiyasının (MHP) proqramının təməl prinsipləri olan “9 İşıq Doktrinası”nı Türkeş 1960-cı illərdə kapitalizm, liberalizm və kommunizm başda olmaq üzrə xarici doktrina və rəhbərlik sistemlərinə qarşı son müstəqil Türk dövlətini qoruya bilmək üçün, milli bir görüş ətrafında birləşmək üçün ortaya qoymuşdur. Bizcə, Türkeşin Türkçülük baxışları onun “9 İşıq Doktrinası”nın ilk maddəsində – Milliyyətçilikdə öz əksini tapmışdır. Türkeşə görə, Milliyyətçilik dedikdə -, hər şey Türk milləti üçün, Türk milləti ilə birgə və Türk millətinə görə sözləriylə yekunlaşdırıla biləcək doktrinadakı fikir, Türk millətinə bağlılıq, sevgi və Türkiyə dövlətinə sədaqət və xidmətdir. Milliyyətçilik Türk millətini, Türk vətənini və Türk dövlətini sevmək, bunların yaxşılığı üçün və yüksəlməsi üçün köklü bir ehtiras və şüur sahibi olmaq deməkdir. Türkçülük isə, mədəniyyətdə, elm və texnikada, siyasət, iqtisadiyyat və ticarətdə hər şeyin Türkə xüsusi və Türkə uyğun bir şəkildə olmasını istəmək və təmin etmək deməkdir. Alparslan Türkeş, milliyyətçilik qanununda əvvəlcə Türk tərifi üzərində dayanmışdır. Türkeş bunu “Türklük şüuruna çatmış, səmimi olaraq “Mən Türkəm” deyən hər kəs Türkdür”-deyə ifadə etmişdir. “Türkçülük və Türkün təyinində, pozğun ölçülərə, xüsusilə məzhəbçiliyə, coğrafiyaçılığa, laboratoriya irqçiliyinə inanmıram.” (10 iyun 1973) sözləriylə açıqlamışdır. Milliyyətçilik maddəsinə görə Türkiyənin geri qalmışlığının ən böyük səbəbi xarici ideologiyalardan istifadə etməkdir. Buna görə bütün xarici ideologiyalara qarşı tamamilə yerli, tamamilə Türk olan bir ideologiya olan “Türk Milliyyətçiliyi” ideologiyası ölkənin rifahı üçün tək çarə olacaq. Milliyyətçilik idealı, Türk millətiylə inteqrasiya olunmaq, Türk millətinin böyük və güclü iqtidarını qurma idealıdır. Milliyyətçilik idealı ən başda milli dövlət qanununa inanır.

“9 İşıq Doktrinası”nın ikinci maddəsi olan İdealistlik də daha çox Türkçülük və Turançılıq üzərinə köklənmişdir. Alparslan Türkeşin də dediyi kimi, Türk milliyyətçiliyində idealistlik, dünya üzərindəki bütün Türk xalqlarını dirlik və birlik içində ən yüksəyə daşıma ideologiyasıdır. Türkeş hesab edirdi ki, Türklük yer yüzündeki bütün Türklerin bir millet ve bir devlet halınde, bir bayrak altında toplanması ülküsüdür. Onun fikrincə, Türk birliyi ülküsü də, sistemli çalışmaq, fürsət gözləmək və hər şeydən öncə Türkiyəyi qorumaq və yüksəltməyə çalışmaq surətiylə bir gün həqiqət olacaqdır. Sadəcə, A.Türkeşin Türklük düşüncəsi Türk-İslam sintezinə əsaslanıb, Rusiyanın kommunizmi və Qərb demokratiyasından uzaq dayanırdı.

Gördüyümüz kimi, 20-ci əsrin ikinci yarısında Türkiyədə Türkçülük uğrunda mübarizə aparan Nihal Atsız sonda Türkçülüyü bütün ideyalardan üstün tutduğu halda, Alparslan Türkeş isə Türk-İslam sintezinə üz tutmuşdur. Başqa sözlə, Atsız Türkçülüyü əsasən Türklüklə əlaqəli adət-ənənələr, inanclar, əxlaqi dəyərlərlə bağladığı halda, Türkeş isə Türkçülüklə İslamçılığı daha sıx şəkildə bütünləşdirmiş, onun davamçıları Türklüyü bədən, İslamlığı isə ruh kimi dəyərləndirmişlər.

***Hazırda Türk, Türklük, Türkçülük əsasən milliyyətçilik kimi başa düşülüb onun sosial-fəlsəfi mahiyyəti arxa planda qalmaqdadır. Bir tərəfdən Türklüyün yalnız milliyyətçilik, millətçilik kimi şüurlara yeridilib şovinizm damğası ilə damğalanması, digər tərəfdən ümmətçilər tərəfindən İslamçılıq ideyasına zərbə kimi dəyərləndirilməsi Türk dünyagörüşünün, Türklüyün öz əsil sosial-fəlsəfi mahiyyətini ortaya qoymasında ciddi problemlər yaratmışdır. Biz, zaman-zaman Türk, Türklük, Türkçülüyün siyasi-ideoloji və sosial-fəlsəfə çatısında baş verən məsələlərin mahiyyətini dərindən aydınlaşdırmadığımız üçün də, onu hansı yöndən yenidən bərpa etmək yolunu da doğru-dürüst müəyyənləşdirə bilməmişik. Bu da, bir gerçək ki, bizim üçün önəmli olan Türk, Türklük, Türkçülük sosial-fəlsəfi sistemindən həm uzaq düşməyimizlə bağlı şüurlarımızda ciddi xaos var, həm də onun siyasi-ideoloji yönü öz ağırlığını qoruyub saxlamaqdadır. Yəni biz keçmişə, dünənimizə baxdıqda “Türk” qavramında əsasən etnosçuluq (gen-qan birliyi), milliyyətçilik axtarıb tapmaq istəyirik. Halbuki bizim, “Türk” qavramına aid keçmişdə axtarıb tapmaq istədiyimiz yalnız bir gen-qan, ya da milliyyətçilik davası olmalı deyil. Bu, ancaq onun bir tərəfi ola bilər, tamamı olamaz. Burada daha çox önəmli olan Türk adı altında var olan böyük bir mədəniyyət, fəlsəfə, dünyagörüş, bir sözlə İNSANLIQ fəlsəfəsidir.***

Məlum olduğu kimi, dünya tarixindəən çox dövlət yaradanlar “Türk” adıyla anılırlar, bu baxımdan da Türk dövlətləri deyirlər. Dövlət qurmaq da fəlsəfi düşüncə, sosial sistem tələb edir ki, bunu da yüksək, ali səviyyəyə malik olan xalq ya da xalqlar edə bilər. Bu anlamda “Türk” sosial-fəlsəfi sisteminə daxil olan topluluqların hansı fəlsəfi, sosioloji, psixoloji, mədəni səviyyəyə malik olması bir daha bəlli olur.

Biz, Türk, Türklük, Türkçülük dedikdə, yalnız milli kimliyi, milli mənsubiyyəti anlamamalıyıq. Yəni “mən Türkəm” demək yalnız milli mənsubiyyət məsələsi deyil! Eyni zamanda, “Mən, Türkəm” demək, sosial-fəlsəfi, ruhi-mənəvi bir kimlikdir. Başqa sözlə, burada yalnız gen-qan daşıyıcılığı deyil, bununla yanaşı ruhi-mənəvi, əxlaqi bir özünüdərk də vardır. Halbuki ötən iki əsrdə bizləəəsasən Türklüyü milli kimlik kimi izah edərək, onu da dil, gen-qan, tarixi-coğrafi və mədəni-kültürəl cəhətləri ilə izah ediblər. Burada təəccüblü heç bir şey yoxdur ki, “Türk” adıyla tanınan millətlər bir-birinə çox yaxın, bəzən də bir qədər uzaq dillərdə danışırlar. Adət-ənənələrində də bəzən çox yaxınlıq, bəzən də ziddiyyətlər müşahidə olunur. Ancaq aşağı-yuxarı dil bənzərliyi, kültür bənzərliyi, eyni dövlətlərə, böyük şəxiyyətlərə, bilgələrə sahibliyi onların “Türk” adlandırılmasına səbəb olmuşdur. Halbuki indinin özündə də başqaları tərəfindən Türk adlandırılmasına baxmayaraq, Türk xalqlarından bəziləri arasında özünü Qazax, Qırğız, Azərbaycanlı, Türkiyəli, İranlı, İraqlı, Suriyalı, Tatar, Uyğur və s. adlandıranlar var. Çox vaxt bunun səbəbləri doğru-dürüst izah olunmur, müxtəlif interpertasiyalar verilir. Fikrimizcə, “Mən, Türkəm” demək, ya da “Mən, Azərbaycanlıyam”, “Mən Qazaxam”, “Mən, Qırğızam” demək anatoqonist zidiyyət təşkil etmir. Sadəcə, burada əsas məsələ tarixən məhz hansı xalqların “Türk” adının daşıyıcısı olması, bunun siyasi-ideoloji tərəfdən çox sosial-fəlsəfi yönünün izah edilməsiidir.

Çünki bir şey gerçəkdir ki, siyasi-ideoloji anlamda Türk ya da Azərbaycanlı, Qazax, Qırğız, Türkiyəli, Uyğur olmaqla, sosial-fəlsəfi anlamda bütünləşdirici Türk adını daşımaq eyni mahiyyəti ifadə etmir. Biz, bunu İslam, İslamlıq, İslamçılıq anlayışları ilə də müqayisə edə bilərik. Ancaq məsələ ondan ibarətdir ki, biz İslam, İslamlıq dedikdə dini birliyi, Türk, Türklük dedikdə Milli birliyi başa düşürük. Bizcə, məsələnin dərin qatlarına enəndə görürük ki, Türk, Türklük, Türkçülük anlayışları İslam-İslamlıq, Xristian-Xristianlıq kmi ümumilikdə dini xarakter daşımasa da, ancaq onu Qərb ideologiyasının təsiri altında sırf milli məsələ məhdudlaşdırıb, milli birlik adı altında etnosçuluq, milliyyətçilik kimi şərh etmək də doğru deyildir. Başqa sözlə, Türkçülük elə bir təlim, dünyəvi və beynəlmiləl bir dünyagörüşdür ki, o, milli məsələdən, milli birlikdən daha geniş anlam daşımaqdadır.

***Bu anlamda Namiq Kamal Zeybək çox doğru yazır ki, “Türklük bir ruh halıdır. “Türk” tarixin p böyük varlıqlarından birinin adıdır. Bir böyük kültür və dəyərlər sistemi içində yoğrulmuş insanlar topluluğunun adıdır Türk!..”***

Türk, Türklük, Türkçülük anlayışlarının siyasi-ideoloji xarakter kəsb edərək , onun sosial-fəlsəfi bir təlim kimi özünə yer tapmamasında ona aid bir kitabın olmaması çox qabardılır. Bizcə, “Türk” təliminin öz kitabı yoxdur deyib, qəti hökm vermək çox da doğru deyildir. “Türk”ün kitabı bizə ya xalq fəlsəfəsi ilə, ya da ayrı-ayrı kitabların hissələri kimi gəlib çatmışdır. Türk təliminin xalq fəlsəfəsi “Atalar sözü”, “Oğuznamə”lər, “Qorqudname”lər və s.-dir. Burada “Ata” ya da “Atalar” olaraq bəhs edilən bilgə insanlardır. “Ata” sözü bilgəliyi, filosofluğu, müdrikliyi bildirir. Bu anlamda Türk təliminin əsas kitabı “Atalar sözü” olub xalq fəlsəfəsi kimi geniş yayılıb. Bizcə, Qorqud Ata, Ulu Xan Ata, Oğuz Ata, Qam Ata, Xızır Ata və digərlərinə aid edilənlər də xalq fəlsəfəsidir. Yəni Qorqud Ata, Ulu Xan Ata, Oğuz Ata, Qam Ata, Xızır Ata və digərləri bir bilgə kimi Türk təlimini təbliğ edir, onun mahiyyətini əhaliyə çatdırırdı. Bu anlamda Türk düşüncəsi, Türk mədəniyyəti dedikdə, bütün zamanlarda Türk xalqlarının yaratdıqları abidələrin, əsərlərin nəzərdə tutulması anlaşılandır.

***Türk təliminin kitabları arasında “Oğuznamə”lər, “Ulu Xan Ata”, “Manas”, “Alpamış”, Orxon-Yenisey abidələri və digərləri də mühüm yer tutmaqdır. Bizcə, bütün bunlar ən qədim “Türk” kitabının sadəcə qalıqlarıdır. Türk təliminin ən qədim kitabı, elə onun adı ilə bağlı olan “TÜRK”dən başqası ola bilməz. Görünür, “TÜRK” sözünün geniş yayılmasına əsas səbəb də, məhz ilk kitabın bu adla ya da ona sinonim bir isimlə bağlı olmasıdır.***



BABƏK



CAVANŞİR



ŞƏMSƏDDİN ELDƏNİZ



UZUN HƏSƏN



ŞAH İSMAYIL SƏFƏVİ



ŞAH TƏHMASİB SƏFƏVİ



ŞAH ABBAS SƏFƏVİ



NADİR ŞAH ƏFŞAR